*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11 (2) 2024*

*Geliş tarihi |Received:11.01.2024*
*Kabul tarihi |Accepted:15.02.2024*
*Yayın tarihi |Published:25.04.2024*

**Şahnaz Abdullayeva**

*https://orcid.org/0000-0003-2861-6045*
*Doctoral student on the theory and methodology of education and training of Baku State University, Azerbaijan, shahnaz.aliyeva.aghasamad@bsu.edu.az*

*Atıf Künyesi | Citation Info*

Abdullayeva, Ş. (2024). Ailə Milli-Mənəvi Dəyər Kimi. *Akademik Tarih ve Düşünce Dergisi, 11* (2), 1122-1126, *https://doi.org/10.46868/atdd.2024.735*

# Ailə Milli-Mənəvi Dəyər Kimi

***Xülasə***

*Milli dəyərlər hər bir cəmiyyətin və millətin həyat psixologiyasını özündə ehtiva edən ənənələr toplusudur. Bu, həmin millətin təşəkkül tarixi, psixologiyası və yaşam qayəsi üçün əsas mənbədir. Bu baxımdan milli dəyərlər, xalqın düşüncə keçmişini, hal-hazırkı və gələcək yönünü formalaşdıran bir genofond kimi fəaliyyət göstərir. Hər bir millətin milli dəyərləri onun milli mənəviyyatının əksini təşkil edir. Milli dəyərlərə milli ideologiya, tarix, dil, mədəniyyət, ədəbiyyat, əxlaq və ailə kimi mənəvi sərvətlər aid edilir. Milli dəyərlərin əsasını təşkil edən dəyərlərdən biri də ailə dəyərləridir. Ailə kiçik dövlətdir, eyni zamanda, aid olduğu dövlətin milli dəyərlərini əks etdirən kiçik cəmiyyətdir. Bu məqalədə ailə dəyərləri milli və mənəvi dəyərlərin inikası kimi təhlil olunur.*

***Açar sözlər:*** *milli dəyərlər, ailə, qadın, cəmiyyət, dövlət, əxlaq*

Creative Commons Licence BY NC

# Family as a National Moral Value

***Abstract***

*National values are a set of traditions that contain the life psychology of each society and nation. This is the main source for the history, psychology and way of life of that nation. In this regard, national values act as a gene pool that shapes the past, present and future direction of the people. The national values of each nation are a reflection of its national spirituality. National values include spiritual assets such as national ideology, history, language, culture, literature, morals and family. Family values are one of the values that form the basis of national values. The family is a small state, and at the same time, it is a small society that reflects the national values of the state to which it belongs. In this article, family values are analyzed as an expression of national and moral values.*

***Keywords:*** *national values, family, woman, society, state, morality*

**Giriş**

Milli dəyərlər hər bir millətin dayağıdır. Bu dayaq həmin millətin tarix, dil, mədəniyyət, ədəbiyyat, əxlaq və ailə kimi mənəvi dəyərlərindən dəstək alır. Bir millətə mənsub kiçik bir ailədə bütün bu mənəvi dəyərlərin ünsürlərinə rast gəlməyin mümkünlüyü ailənin kiçik bir dövlət olması deyimini bir daha təsdiq edir. Ailə, Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyevin də vurğuladığı kimi, Azərbaycan xalqının yaşaması, öz mənliyini və qürurunu qoruması üçün onun ən vacib və əvəzolunmaz milli-mənəvi dəyəri, sərvətidir.

Azərbaycan cəmiyyətinin ən önəmli mənəvi sərvətlərindən olan ailə dəyərlərinin sosial məqsədi və milli-mənəvi missiyası vacib element kimi qorunub saxlanılması məqsədilə müəyyən tədbirlər həyata keçirilir. Buna misal olaraq, hər il may ayının 15-də Beynəlxalq Ailə Günü münasibətilə keçirilən tədbirləri göstərmək olar. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi əlamətdar günlə bağlı respublikanın müxtəlif bölgələrində "Ailə bayramı"nda nümunəvi ailələri seçir və tədbirdə ailə dəyərləri ilə əlaqəli müxtəlif mərasimlər keçirilir. Bundan əlavə, 16 may 2023-cü il tarixində Özbəkistan Respublikasının Məşğulluq və Yoxsulluğun Azaldılması Nazirliyinin nəzdində fəaliyyət göstərən Ailə və Qadın Komitəsinin və “Ailə və Qadın” Elmi-tədqiqat İnstitutunun birgə təşkilatçılığı ilə 15 May Beynəlxalq Ailə Gününə həsr olunmuş “Ailə İnstitutunun inkişafında milli və ümumbəşəri dəyərlərinin rolu: milli və xarici təcrübə” mövzusunda keçirilən Beynəlxalq Elmi-praktik konfransda Özbəkistan Respublikasının bir sıra dövlət qurumlarınının, beynəlxalq təşkilatların (UNFPA, UNICEF) nümayəndələri ilə yanaşı,

onlayn formatda Azərbaycanın aidiyyəti qurumlarının nümayəndələri də qoşulmuşdur (http://www.scfwca.gov.az/post/3504/aile-institutunun-). Müstəqil Azərbaycan Respublikasında dövlət siyasətinin prioritet istiqamətlərindən biri də ailə siyasətidir. Ailə siyasətinin normativ və əməli tənzimi məsələləri Ümummilli Lider Heydər Əliyevin xüsusi diqqət mərkəzində olmuşdur. O, milli ideologiya, humanitar siyasətin konseptual əsaslarını təşkil edən zəngin mədəniyyətşünaslıq irsinin tədqiqi və mənimsənməsi ilə milli dəyərlərimizi möhkəmləndirmişdir. Təsadüfi deyil ki, Azərbaycanda sosial sahədə dövlət siyasətinin nailiyyətləri milli-mənəvi dəyərlərdən mənbələnir və bu dəyərlərin təcəssümüdür. Bu, həmçinin, ailə dəyərlərinin dövlət səviyyəsində əhəmiyyətinin görüləbilən ifadəsidir. Prezident İlham Əliyev, 2009-cu ildəki Nazirlər Kabinetinin iclasında milli dəyərlər mövzusuna toxunaraq, öz milli dəyərlərimizi qorumağımızın və möhkəmləndirməmizin ölkəmizin inkişafı və müstəqilliyi üçün əhəmiyyətli olduğunu qeyd etmişdir. Dövlət ailə siyasəti, milli-mənəvi dəyərlərin bərqərar edilməsi istiqamətində nailiyyətləri də nümayiş etdirir. Bu, öz növbəsində əhalinin sosial rifahının yaxşılaşdırılmasına, uşaqların fiziki və mənəvi olaraq güclü yetişdirilməsinə, milli genofondun möhkəmlənməsinə xidmət edir (https://www.anl.az/down/meqale/azerbaycan/azerbaycan_). Azərbaycan psixologiyasında, ailə faktoru digər xalqların psixologiyası ilə müqayisədə daha dərin və uzunömürlüdür. Digər millətlərdə olduğu kimi, Azərbaycanlılar ailə üzvləri ilə geniş əlaqə qurur, onların dəstəyini alaraq öz məqsədlərinə nail olmağa çalışırlar (https://kaspi.az/az/milli-deyerlerimizin-fundamenti-aile-deyerlerimiz). Həmçinin, Azərbaycan psixologiyasında, hər bir ailə üzvünün özünəməxsus vəzifələri və mövcudluğu önəmli rol oynayır. Ailə, güc, birlik və iradəni simvolizə edir ki, milli dəyərlərin təhlili zamanı bu məqamlar daima vurğulanır. Təsadüfi deyil ki, ədəbiyyatımızın incilərindən olan Kitabi-Dədə Qorqud və Koroğlu dastanlarında da ailə dəyərləri öz əksini tapmışdır. Buna missal olaraq, Kitabi-Dədə Qorqud dastanında ağsaqqalın el-oba içində hörmətinin vurğulanmasını göstərmək olar. Gənclərə hətta cəmiyyətdə özünü sübut edən bir əməl törədənə qədər ad qoyulmur, kimin oğlu olması ilə bilinir.

Cəsur bir əməl törətdikdən sonra elin ağsaqqalı Dədə Qorqud ona ad qoyur. Koroğlu dastanında isə Nigarla Koroğlunun münasibəti həyat yoldaşları arasındakı münasibətə gözəl nümunədir. Nigar Koroğlunun zərif, incə və gözəl qadını yeri gəldikdə həm də vətəni qoruyan, yoldaşının silahdaşı, cəsur qadındır. Övladları olmamasına baxmayaraq, onların arasında onları bağlayan böyük sevgi. hörmət hökm sürür.

Milli-mənəvi dəyərimiz olan ailə dəyərləri mövzusuna pedaqoji yanaşma, məktəblə birgə fəaliyyət də diqqəti cəlb edən məqamlardandır. Təhsil Qanununda yer alan, sinif rəhbərinin işinin 4 istiqamətindən biri də şagirdin böyüdüyü, formalaşdığı, tərbiyə aldığı ailə ilə birgə işdir. Təsadüfi deyildir ki, sinifdənxaric və dərsdənkənar işlərin təşkilinin önəmli bir hissəsini də ailə ilə əlaqə və birgə iş təşkil edir. Bu zaman şagirdin ailə mühitinin, onun ailə üzvlərilə münasibətlərinin öyrənilməsi vacibdir və valideyn iclaslarında valideynlərin məsləhətlər, söhbətlər vasitəsilə psixoloji və pedaqoji maarifləndirilməsi, uşaqların və valideynlərin asudə vaxtlarının birgə keçirilməsi, problemi olan ailələrdə uşağın maraq və hüquqlarının müdafiəsi müzakirə olunmalıdır. Beləliklə, sinif rəhbərləri tərəfindən valideynlərin maarifləndirilməsi və ailə tərbiyəsinin korreksiyası həyata keçirilməlidir (arti.edu.az).

Cəmiyyətdə dəyər, əslində, ailə daxilində kiçik bir qığılcımdan təkan götürür. Hər şey ailənin kiçik üzvlərinə elə kiçik yaşlardan bir fərd kimi dəyər verib, özlərinə dəyər verməyi aşılaması ilə başlayır. Özünə dəyər verməyi bacaran özgüvənli fərd məktəbli kimi müəllimlərinə və sinif yoldaşlarına dəyər verməyi bacaracaq, öz hüquqlarını qoruya, başqalarının hüquqlarına hörmətlə yanaşıb tolerant bir insana çevrilə biləcək. Beləcə, cəmiyyət əxlaqi, milli-mənəvi və ümumbəşəri dəyərlərə sahib, humanist, vətənpərvər, müasir və peşəkar bir vətəndaş qazanmış olacaq.

**Nəticə**

Azərbaycan xalqının milli-mənəvi sərvəti olan ailə dəyərlərinin qorunması və dəstəklənməsi mühüm vəzifədir. Bu vəzifə təkcə xalqın üzərinə düşmür, dövlət qurumları da bu məsələyə dövlət səviyyəsində diqqət yetirərək tədbirlər planı həyata keçirir. Ailə dəyərlərinin qorunması məqsədilə həyata keçirilən tədbirlər təhsilimizdən də yan keçmir, ailə dəyərlərimizin qədimliyini şagirdlərin diqqətinə çatdırmaq məqsədilə qədim ədəbiyyat incilərimizdə bu mövzuya işıq salınır.

Bu dəyərlərin möhkəmləndirilməsi və qorunmasında müəllimlərin, xüsusilə də sinif rəhbərlərinin öhdəsinə ailələrlə daimi əməkdaşlıq, valideynlərin maarifləndirilməsi və ailə tərbiyəsinin dəstəklənməsi kimi vacib vəzifə düşür. Bu bütün fəaliyyətlər, cəmiyyətimizdə humanist, milli-mənəvi və peşəkar vətəndaşların yetişdirilməsinə xidmət edir.

**Ədəbiyyat Siyahisi**

http://www.scfwca.gov.az/post/3504/aile-institutunun-inkisafinda-milli-ve-umumbeseri-deyerlerinin-rolu-milli-ve-xarici-tecrube-movzusu

https://www.anl.az/down/meqale/azerbaycan/azerbaycan_may2009/78970.htm

https://kaspi.az/az/milli-deyerlerimizin-fundamenti-aile-deyerlerimiz

Umumtəhsil-muəssisələrində-tərbiyə-isinin-təskilinin-nəzəriyyəsi-və-metodikasi.pdf (arti.edu.az)